

# Ürəklərə köçən qəhrəman Vüsal

***Dağlar diyarı Lerik rayonunun Almu kəndində dünyaya göz açmış Vüsal Bəxtiyar oğlu Məlikov müstəqil həyata qədəm qoyanda Vətənini hər şeydən üstün bilir.***

Odur ki, hər zaman onun keşiyində durmaq üçün özünü hərbiyə bağlayır. Belə ki, 2016-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur, 2020-ci ildə oranı əla qiymətlərlə bitirərək N saylı hərbi hissədə leytenant rütbəsində xidmətə başlayır. Öz doğma Vətənini göz bəbəyi kimi qoruyur, hər an onun yolunda canını, qanını belə fəda etməyə hazır olur.

Gənc zabit 2022-ci il 13 sentyabr tarixində Azərbaycan-Ermənistan dövlət sərhədində erməni təxribatının qarşısına almağa çıxanlardan birinci olur. Döyüş zamanı yüksək şəxsi rəşadət və şücaət göstərməklə yağı düşmənə sözün həqiqi mənasında qan qusdurur. Özü də 22 yaşında canından əziz tutduğu Vətən naminə şəhidlik zirvəsinə ucalır. Vüsalın bu şərəfli ölümü onu bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevirir. Nə qədər ki, Azərbaycan var olacaq, onun müqəddəsliyinə tapınaraq şəhidlik yolunu seçən Vüsalın adı da onunla birgə çəkilər...

Qəhrəman şəhid Vüsal Bəxtiyar oğlu doğulduğu Almu kəndində torpağa tapşırıldı.

Şəhidimizin dəfn mərasimində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və yaxınları, hərbçi yoldaşları, rayon ictimaiyyəti iştirak edirdilər. Dəfn mərasimdə çıxış edən Əkbər Abbasov şəhidin ailə üzvlərinə baş sağlığı verdi, Vüsal kimi igid, vətənpərvər oğullarla hər bir azərbaycanlının fəxr etdiyini dedi. Şəhidin tabutu üzərinə sərilən bayraq icra başçısı tərəfindən onun atasına verildi.

***Zəfər Orucoğlu, AJB üzvü***

**Unikal.- 2022- ci il.- 23 sentyabr.- S. 13.**